

AZƏRBAYCAN

Babalardan qalma sözdür, –
əziz, mehriban
Ana deyə çağırırıq
Azərbaycanı.
Vətən quru dağ-daş deyil...
Onu hər zaman
seyr etdikcə biz görürük
canlı insanı:

Şirvan yolu – alnındakı
qırışlarıdır,
Mingəçevir – sevinc ilə
yanan gözləri.
Şah dağının silsiləsi –
sıx qaşlarıdır,
Zümzüməli Kürün suyu –
şirin sözləri.

Abşeronum – onun odlu, isti ürəyi,
Bu *torpaqdır – güvəndiyi*
var-dövlətinə.
Nifrətidir, qəzəbidir
Bakı küləyi
Gec baxana öz xalqına,
öz millətinə.

Onun sözü-söhbətidir,
dilinin duzu –

Sazlı-tarlı, xoş avazlı
Qazax, Qarabağ.
Şəfa verən loğmanıdır –
Sirab, İstisu,
Nəvazişli qucağıdır –
Kəpəz, Xaçbulaq.

Səxavətli bir insandır
qollu-qanadlı,
Bol nemətli süfrəsidir –
Ağdam, Lənkəran.
Düşməninə yumruğudur –
Laçın, Qubadlı,
Sol döşündə orden kimi
yanır Naxçıvan!

Göy göl onun çay içdiyi
mavi nəlbəki,
Təzə arxlar, kanallarsa
alın təridir.
Ağ köynəyi – Mil düzüdür;
ipəkli Şəki –
Paltarının zər baftalı
ətəkləridir.

İgidlərin şəkli düşən
şəfəqli Xəzər –
Medalyondur, ana onu
qoynunda saxlar.
Körpəsinə süd verdiyi
döşünə bənzər
Qar sinəsi qoşa-qoşa
bulaqlı dağlar.

Əsrimizin möcüzəsi
o Neft Daşları –
Su üstünə möhür salan

əlidir onun.
Nizamidən soraq verən
Gəncə çinarı
Tufanlarda əyilməyən
belidir onun.

Babalardan qalma sözdür –
əziz, mehriban
ana deyə çağırırıq
Azərbaycanı.
Vətən quru dağ-daş deyil...
Onu hər zaman
Seyr etdikcə biz görürük
canlı insanı.

* * *

Hara getsək bizi çağırır Şuşa,
Bilirsizmi nədir bundakı hikmət:
Üç gözəl söz ilə yaranmış qoşa –
Gözəl səs! Gözəl qız! Gözəl təbiət!

SEHRLİ TORPAQ

Bu torpağa zinət vermiş, sığal çəkmiş təbiət,
Onu mənə ana edən deyil təkcə bu hikmət...

Kitablara sığışmayan tarixi var, adı var,
Bunlar uzaq keçmişlərdən qalıb mənə yadigar.

Sinəsini aç torpağın, əsrləri danışdır,
Gözlərimə yad gəlsə də, ürəyimə tanışdır

Yer altından çıxan saxsı, çini qablar, mis səhəng,
Sarp qayaya həkk olunmuş o əjdaha, o mələk,

İldırımdan od borc alan babaların ocağı,
Əllərini qabar edən daş çəkici, bıçağı,
Şüşə, muncuq – kasıb qızın nadir nemət sandığı,
Bir tacirin içi dolu ləl-cavahir sandığı,
Qul halqası, hökmdarın yerlə yeksan zər tacı,
Dünyaları ayaqlamış səyyahın əl ağacı,
Yer altda da qoşa durub yaşadan düz ilqarı –
Min illərcə çürüməyən sevgililər məzarı...

Hansı yana əl aparsan bu yerlərdə əgər sən
Söhbət açan, sirr danışan nələr, nələr görərsən...

Lakin üç şey var ki, odur yer üzünün zinəti,
Azərbaycan torpağının ilk həmdəmi, qismәti!
Şöhrətidir babaların, şöhrətimdir o mənim,
Sayəsində qalib çıxıb sınaqlardan Vətənim:
Xış dəmiri! Qılınc! Qələm!
Demə bunlar pas atmış,
Bunlar mənim şanlı, parlaq tariximi yaratmış!

Bəli, o xış yazmışsa da əkin vaxtı hər yerə –
Kasıblığın dərdlərini güneylərə, düzlərə,
Dəstəyindən yapışanı qaldırmışdır çox uca,
Qoymamışdır əcdadımı düşmənlərə əl aca;
Onun adı bərəkətdir ocağıma-tüstümə.
Qarı düşmən qoşun-qoşun gələn zaman üstümə,
Elim-obam götürmüşdür o qılıncı-qalxanı,
O qılıncla yazılmışdır Koroğlunun dastanı.

Qələmlə də əsrlərin söz-söhbəti dil açmış:
Neçə könül qönçələri ağ kağızda gül açmış.
Bu sehrlə çatmış bizə qədim sənət açarı –
Nizaminin, Füzulinin solmaz sənət baharı.

Xış dəmiri! Qılınc! Qələm!
Demə bunlar pas atmış
Bunlar mənim şanlı, parlaq tarixini yaratmış!

BƏLƏDİKMİ ÖZÜMÜZƏ

Adam var ki, gəzməyibdir paytaxtını,
Göydən, yerdən salmayıbdır nəzər ona.
Seyr etməyib bir güzgüdə öz baxtını –
Baxmayıbdır o Xəzərə, Xəzər ona.

Adam da var Kür, Araztək çay görməyib,
Qarışmayıb gülüşünə şəlalələr.
Uçurumun şir ağzından gül dərməyib,
Dodağını öpməyib daş piyalələr.

Yad elləri barmaq-barmaq sayıb bilən,
Avropanı qarış-qarış gəzib gələn
Alim var ki, şair var ki, rəssam var ki,
"Vətən" adlı bir fənndən alar "iki".

Az isinib ecdadının ocağına,
Yandırmayıb papirosunu öz közündən.
Az sığınıb anasının qucağına
Bir gün gərək sual etsin öz-özündən,

Fikrə getsin vətən oğlu dərin-dərin:
"Torpağımda hər obanın, hər şəhərin
Bilirəmmi keçmişini, bu çağını?
Gəzmişəmmi yurdumun hər bucağını? –

Yol cövrünü, səfasını duya-duya
Getmişəmmi İstisuya, İlisuya?

Süzmüşəmmi heç Göy gölü heyran-heyran?
Rastlaşıbmı bir adada mənə ceyran?

Çəkmişəmmi təkər dönməz gavda atı,
Aşmışammı göllü, güllü Batabatı?

Sarıyerdə, yayda qopan bir boranda
Düşmüşəmmi yaxın dəyə sorağına;

Dumanlıqda zarafatla göz vuranda
Əl atıbmı çoban qızı çomağına?

Bərdəliyəm, qabağımda məxməri çay,
Baxmışammı Astaraya o tay, bu tay?

Qubalıyam, yollanaram mən hər yana,
Düşübdürmü güzarım heç Zəngilana?

Hansı ildə işə-gücə verib ara
Üz tutmuşam Masallıdan Dəstəfura?

Minkənddənəm, görmüşəmmi Qonaqkəndi,
Yardımlını... daha uzaq-uzaq kəndi?

Keçmişəmmi Bərgüşadı, İncə çayı?
Danışıbmı Nizamidən Gəncə çayı?

Toxundummu yarasına xan Kəpəzin,
Dolaşdımmı Lənkəranı, Şirvanı mən,
Yola salıb ağladımmı həzin-həzin
Nəsimini – gedər-gəlməz karvanı mən?

Söz salıbmı gah kədərlə, gah büsatla
Cəfərindən, Müşfiqindən doğma Xızı?
Yad edibmi sazla-tarla, muğamatla
Vaqifini, Vurğununu Qarayazı?

Bələdəmmi el dərdinə-düyününə,
Xan kəndinin dünəninə, bu gününə,

Bol olsa da səxavətdə yeni həyat,
Ürəyimcə abaddırmı Pənahabad?

Baxıb-baxıb Qanlı gölə mən heyrətlə,
Yad etdimmi qəsbkarı həqarətlə?
Dinlədimmi gözlərimi yuma-yuma
Necə qətlə yetirilib Aşıq Cüma?

Eşitdinmi nə zamandır nəğməsinə
Qatıb Şəki bülbülləri bir nəqərat:
"Heyif sənə, heyif sənə,
Hacı Murad, Hacı Murad..."

Görmüşəmmi Xaçın üstü Kəngərlidə
Koroğlunun yuvasını-kahasını,
Udmuşammı, Nəbi kimi bir igidə
Arxa duran Çalbayırın havasını?

Oxudunmu tarixini min dastanda –
Sobaycli civarında, Qobustanda
Daş vərəqdə neçə-neçə şah əsəri,
Ulu babam göndərdiyi nameləri?

Qaçmayıb ki, nəzərimdən bir dağ yolu,
Qələ yolu, məbəd yolu, bulaq yolu?

Ələk-vələk etmişəmmi meşələri,
Qalmayıb ki, gözdən iraq guşələri?

Çıxmışammı Şahdağına, Murova mən,
Baxmışammı vətənimə zirvələrdən?

Üryan qılınc parçalayıb iki yana,
Nə etmişəm qoymaq üçün onu qına?

Bir söz ilə, necə sevib öz ölkəmi
Tanıyıram mən ovcumun içi kimi?"

Düşündürsün bu suallar qoy hər kəsi,
Ovuc içi olsun vətən xəritəsi,

Görək onun hər kəndini, şəhərini,
Dünənini, bu gününü, səhərini,
Hər açanda ovcumuzu,
qoy buradan
təbəssümlə baxsın bizə Azərbaycan!

DİYARIM

Diyar var – üstünə od tökür günəş,
Yayı da atəşdir, qışı da atəş.
Taleyin behişti buradır deyir –
Susuz səhralarda yaşayan həbəş.

Diyar var – il boyu ərimir buzu,
Yaşıl yamacında mələmir quzu.
Doğma sakininə fəqət bu yerin
Xurmadır arpası, şəkərdir duzu.

Diyar var – dörd yanı tufanlı dalğa,
Döyür sahilini müdam qasırğa,
Ömrünü ölümə girov qoyanlar
Yurdum-yuvam deyir vulkanlı dağa...

Gəzib iqlim-iqlim, görüşüb bir-bir
Ərzin hər yerində insanı dindir,
İztirab da çəksə car da çəkəcək:
"Vətən mehribandır, vətən şirindir!"

Vətənlər içində göyçək vətənim,
Səhrası, yaylağı çiçək vətənim,
Dünyanın qoynunda sən bir dünyasan –
Azərbaycan! Bəxtim, taleyim mənim!

Diyarlar içində şirin diyarım,
Qışı ilıq, yayı sərin diyarım,
İmzalar içində imzan var sənin,
Gözümün üstündə yerin, diyarım!

ZÜMRÜD TAC

Qarabağ...
Nə zaman çəkilsə bu ad
Gözümün önündə bir qız dayanır:
Hörüyünün kökü buz tutub qat-qat,
Atlaz paltarının
Ətəyi yanır...

Qarabağ –
Mehriban, gözəl, vüqarlı
Yurdumun qızıdır,
Kamalı dərin.

Qarabağ –
Sinəsi şerli, tarlı,
Döşü havalıdır, ləhcəsi şirin.
Yer üzü dinləyir zənguləsini.

Ağır yığnaqlıdır,
Söz-söhbətlidir.
Görənlər o qızın saf çöhrəsini
Deyər nə həyalı, nə ismətlidir!

Mərdlik zirehiylə
Döşü sipərli,
Nüşabə idraklı,
Həcər təpərli.
Əli buludlarda,
Ayağı Kürdə,
Açıq süfrəsinin qonağı saysız...
Kim əsir istəyib,
Onu bu yerdə
Boynunu qılıncdan keçirib o qız!

Bədxahı boğmaqçın qəsdinə duran
Xaçın, Qarqar onun qoşa saçıdır.
Başının üstündə yanıb bərq vuran
Şuşa Qarabağın zümrüd tacıdır!..

"VƏTƏN" YAZDIM...

"Vətən" yazdım...
Qanadına aldı məni xəyalım,
Odur bəxtim, səadətim,
Odur cahım-cəlalım.

Necə yazım bir şer ki,
Gəzsin dildə-ağızda.
Bir ümmanı sığışdırım
Bircə parça kağızda?

Hansı rənglə təsvir edim
Çəmənini, düzünü,
Dağlarının ətəyini,
Çeşməsinin gözünü?
Sevimlimiz Qarabağı,
Savalanı, Kəpəzi?

Necə lövhə yaradım ki,
Yaranmamış əvəzi?
Hansı səslə haraylayım

Arazı mən, Kürü mən,
Utanmayım dağ dalğalı,
Quzu gözlü Xəzərdən?

Savad hanı – ayırd edim
Alnındakı yazını?
Mizrab hanı – məharətlə
Dilləndirim sazını?
Hünər hanı – eyham vurub
Danışanda sarı sim,
Damarımda coşan qanın
Qabağını mən kəsim?
Hardan tapım ürəklərin
Daşa dönmüş sərtini,

Söyləyəndə tab eləsin
Bu torpağın dərdini?

Hardan tapım bu Culfadan
O Culfaya işləyən,
Tarix boyu üzərini
Tikan örtmüş yolu mən?

"Vətən" yazdım...
Qanadına aldı məni xəyalım,
Odur bəxtim, səadətim,
Odur dərdim-məlalım...

DƏNİZ XİSLƏTLİ TORPAQ

Qəzəblə qabarar, fərəhlə çağlar
Dəniz xislətlidir vətən torpağı.
Xalqı nəsil-nəsil öləyib saxlar,
Gendir, səfalıdır, pakdır qucağı.

Həm də səbrlidir o nəcib ana,
Təmkinlə ayırıb xeyirdən şəri,
Sadiq övladları basır bağrına,
Kənara tullayır naxələfləri.

Kənara tullayır ağac qurdutək
Gövdəni içindən yeyib yıxanı.
Qovub uzaqlara aparır külək
Əslinə-kökünə dönük çıxanı.

Belə sehrlidir vətən qucağı,
Xalqı nəsil-nəsil öləyib saxlar.
Dəniz xislətlidir onun torpağı
Qəzəblə qabarar, fərəhlə çağlar.

BƏNÖVŞƏ YARPAĞI

Zəng çalıb aramsız telefon dinir –
Uzaqda yad edib məni kim isə,
Şirin bir duyğuyla qəlbim isinir,
Dostlarım yer-yerdən verir səs-səsə.
Sonra növbə ilə bir-bir danışır.
Meşədən gələn səs səsə qarışır:

"Hop-hop... tuq-tuq... cik-cik...".
– Sənin şərəfinə sağlıq deyirik!
– Sağ olun, var olun siz də həmişə.
– Havalar necədir?
– Torpanmir yarpaq.
– Turşsuda solmayıb hələ bənövşə,
Bir dəstə yığmışıq sənə yollayaq...

İstini-bürkünü qovub uzağa
İlk bahar havası dolur otağa.

Zəng çalıb aramsız telefon dinir –
Yenə yad eləyib məni kim isə.
Şirin bir duyğuyla qəlbim isinir,
Deyirlər:
– Cavab ver indi Kəpəzə!
– Allo! Bu sənsənmi, fermaçı qardaş?
– Xoş gördük, əzizim!
– Haçan köçürsüz?
– Tədarük görürük biz yavaş-yavaş...
– Çadırı, doyəni nə vaxt sökürsüz?
– Sabahdan... Qalmayıb dağın ləzzəti.
– Yubansaq sürünün tökülər əti –
– Bombozdur hər yamac, bombozdur hər dik,
– Küləkdən, yağışdan zara gəlmişik...

İstini-bürkünü qovub uzağa.
Bir payız havası dolur otağa.

Zəng çalıb aramsız telefon dinir,
Yenə yad eləyib məni kim isə.
Şirin bir duyğuyla qəlbim isinir,
Verir uşaqlarım bu vaxt səs-səsə.
– Allo?
– Dəlidağdır... Bizik danışan...
– Deyən darıxmısız, uşaqlar, yaman?
– Gəl apar, ata!
– Yox, – dedim qan-tərə mən bata-bata.
Bura çox istidir...
– Burasa qar yağır... yubansan əgər,
Atacan, qaloş al, palto da göndər!..

İstini-bürkünü qovub uzağa
Qışın sərt havası dolur otağa.

Dönüb nəzər saldım xəritəyə mən
Axtardın, aradım, gəzdim dünyanı.

Bayaq səsi gələn, havası gələn
Çiçəkli, çisəkli o dağlar hanı?!

Hanı od püskürən qızıl Abşeron,
Hanı o bürkülü Muğan, Mil düzü?
Axtarıb gəzdikcə mən heyran-heyran,
Baxıb gülümsədi sanki Yer üzü.

Onu qarşı-qarış seyr edə-edə
Dağları gəzməyim hədərmiş, hədər:
Azərbaycan dünya xəritəsində
Görünür bənövşə yarpağı qədər.
Baxdıqca sevindim, fəxr etdim ancaq!..
Böyüdü gözümdə bu kiçik yarpaq.

Hər fəslin getsə də burda söhbəti,
Hamı bahar bilir Azərbaycanı.
Onun xoş səsası, onun şöhrəti
Bənövşə ətritək tutub dünyanı.

SİRDAŞ

Yad yer, qarlı şəhər,
hər yan duman, sis...
Buz tutub gölləri,
torpağı-daşı.
Burda çox darıxdım...
Mehriban bir hiss
oldu ürəyimin əziz sirdaşı.

Bir həyanım idi
yol yoldaşı tək,

həmişə yanımca o addımladı.
Onsuz bu yerlərdə donardı ürək...
Bu əziz sirdaşın
Vətəndir adı!

NEYİN ƏFSANƏSİ

Ağlama ney, ağlama ney,
Ürəyimi dağlama, ney.
Sirdaşınam, söylə mənə,
Kim yamanlıq etmiş sənə?
Hey sızıltı, nalə, fəğan...
Güləcəksən bəs nə zaman?!
Ney dilləndi: – Soruşma gəl,
Həm pis, həm də yaxşı əməl
"Töhfəsidir" insanların.

Xoş çağıydı ilk baharın,
Yarpağım göy, qamətim düz,
Süslənirdim gecə-gündüz,
Məskənimdi çay kənarı,
Sirdaşımdı çöl quşları...
Bilməz idim qayğı, fikir,

Qüssə nədir, nalə nədir.
Nəşəliydim... Zalım çoban
Qamətimi görən zaman
Yaxınlaşıb dedi: "Əhsən
Bu camala! Nə dilbərsən!
Yetər, gördün neçə bahar;
İndi mənə ol nəğməkar..."
Qamətimə bıçaq çaldı,
Yurd-yuvamdan ayrı saldı.
Əllərində döndüm neyə,
Qaldım vətən deyə-deyə.

O zamandan ağlayıram,
Ürəkləri dağlayıram.
Nə son verirəm məlala,
Nə çatıram bir vüsala.
Axır, axır nəfəsimdən
Sızıltıyla: "Vətən, vətən!.."

SƏHVİMİZ

"Yad ölkədə varmı yaxın qohumunuz?"
Sualının biri buydu anketlərin.
"Yox" sözünü yazıb keçdi bir çoxumuz,
Mənasını düşünmədən dərin-dərin.

Bəs o gözü yolda qalan Təbriz qızı,
Savalanın igid oğlu de, kimlərdir?
Danmırıqmı anamızı, bacımızı –
Məgər onlar on nəfərdir, yüz nəfərdir?

Milyon-milyon qohum-qardaş o taydadır...
Bəs nə üçün "yox" yazırıq bu suala?
Doğmaları ögey bilmək nə qaydadır,
Bu gün hələ yetməsək də biz vüsala?

Ah, qol-boyun gəzəcəyik nə vaxt birgə
Sahil boyu doğma Kürü, Arazı biz?
Nə vaxt yallı tutacağıq cərgə-cərgə
Bayram kimi qarşılayıb hər yazı biz?

Ana torpaq, danla bizi, yaraşarmı
Əsrlərcə qəlbdə yatsın çox sözümüz.
"Yad ölkədə qohumunuz, deyin, varmı?"
Gün olsun ki, düz yazılsın "yox!" sözümüz!

BU ARZUM DA...

Uşaq idim min suallı,
Hər istəyim qeylü-qallı.
Göylərdə gəzmək xəyalı,
Dincliyimə haram qatdı,
Qarşıladım bu vüsalı –
Bir arzum da başa çatdı.

Cavanlıqdan nə danışım,
Od içində artdı yaşım,
Yasdan çıxdı can sirdaşım,
Həyat alıb ölüm satdı
İnsan adlı qan qardaşım –
Bir arzum da başa çatdı.

Ömür qısa, dilək çin-çin...
Qovrulurdum için-için,
Atası şəhid yetimin
Əli bir gün aşa çatdı,
Taleyindən oldum əmin –
Bir arzum da başa çatdı.

Bir igidi yıxdı araq,
Əl də üzdü oğul-uşaq...
Saatın xoş çağına bax,
İçkini biryolluq atdı,

Şadlıq gəldi qucaq-qucaq –
Bir arzum da başa çatdı.

İllər ötdü, yaşa doldum,
Gah açıldım, gah da soldum,
Kül altından çıxdı odum,
Oğul nəvəm addım atdı,
Ərzi gəzən səyyah oldum –
Bir arzum da başa çatdı.

Doymaq olmur təbiətdən,
Görməmişdim Bosforu mən.
Nağıl meşə, nağıl çəmən...
Bu nə aləm, nə büsatdı,
Heyran-heyran dedim: "Əhsən!.."
Bir arzum da başa çatdı.

Gözlərində sevincdən yaş
Araz boyu iki qardaş
Car çəkəydi: "Bitdi təlaş –
Ayrılığın salı batdı..."
Can üstündə deyəydim kaş:
"Bu arzum da başa çatdı!"

GÖRDÜM

Düz getdin, rastına əyrilik çıxdı.
Dünyada xoş halət görmədin, ustad!
Dostların, həmdəmin evini yıxdı,
Etibar, sədaqət görmədin, ustad.

Alilər zillətdə, nadanlar kefdə,
Yurdsevərlik baha, satqınlıq müftə!..
Hökmran əyanlıq, taclıq tərəfdə
Güc gördün, dəyanət görmədin, ustad!

Kürün sahilində kükrədin, daşdın,
Sevincə bürünüb dərdə qarışdın,
Nazlı sənəmlərlə küsdün, barışdın,
Heç yerdə sədaqət görmədin, ustad!

Yaman ağır gəldi faciən mənə.
Gəzdiyin yerlərin çıxdım seyrinə.
Doğma eli gördüm, milləti gördüm.
Hər şəhərdə sənə, hər kənddə sənə
Bitib-tükənməyən hörməti gördüm.
Qarabağ – doğma yurd, doğma su, hava,
Vaqifli, Zakirli – cəh-cəhli yuva
Zirvədən dumanı hey qova-qova
Saxlayır o qədim şöhrəti, gördüm.

Gördüm gözəllərdə hüsnü, vüqarı,
Sənin vəsf etdiyin əhdi-ilqarı.
Dinəndə Şuşanın şirin qızları
Şərindən süzülən şərbəti gördüm.

Nəfəsin əritdi qırovu, çəni,
Tər çiçək yetirdi şerin çəməni,
Bu gecə sübhədək oxudum səni,
Vurğuna verdiyin vüsəti gördüm.
Sönən duyğuları gətirib cana,
Səsin səda salıb cümlə-cahana,
Əhsənlər yetirir Azərbaycana,
Yaşadıb yaşayan sənəti gördüm...

HƏYAT SƏHNƏLƏRİ

Bir həvəs, bir maraq səssiz-səmirsiz
Bəzən alışdırıb yaxır insanı.
Ürəyin gözüylə seyr edirik biz
Doğma səhnəmizdə hər tamaşanı.

Bu səhnə gah olur döyüş meydanı,
Gəlir iki qüvvə burda üz-üzə.
Görünmür mizrağın, qılıncın sanı
Sinədən axan qan çıxanda dizə.

Salır vahiməyə acgöz yadları
Bizim Cavanşirin, Elxanın səsi.
Qəlbləri yandırıb yaxan odları
Üfürüb söndürür haqqın nəfəsi.
Fikir ver, diqqət et bir an keçmişə,
O dövrandan gələn səsləri dinlə.
Gör necə çatılmış zalıma qarşı
Ərəblinskinin qaşları kinlə.

Səhnə ustasının cavan çağında
Böyük arzuları gözündə qalmış.
Onun viran olmuş könül bağında
Boşərin kədəri yurd-yuva salmış.

Dönür bizim səhnə əsil məktəbə,
Dərs verir həyatın fəlsəfəsindən.
Hər kiçik kəlama, kiçik mətləbə
Qatır dərin məna elin səsindən.
Görüb Nizamini, Molla Pənahı,
Sənət məbədinə səcdə qılırıq.
Xuraman etdiyi böyük günahı
Yumaqçın ağlayır bax, qırıq-qırıq...

Bəzən də məhəbbət alovlarına
Bürünüb biz qarlı dağlar aşırıq.
Bir aşiq çatanda öz dildarına
Biz də şirin-şirin pıçıldaşırıq.

Ya da xain çıxır biri büsbütün,
Əzəlki sevdanı adlayıb keçir...
Ehtiras odunu söndürmək üçün
İndi də özgə bir bulaqdan içir.

Qızın varlığında görünmür vüqar
Səhnəyə gur işıq düşsə də yenə.
Eşqi təhdid edən xəbis duyğular
Qara kölgə salır onun üzünə.

Bu səhnə büsbütün yandırır, yaxır
Görünməz alovla ürəyimizi.
Qəzəbdən göz yaşı süzülüb axır...
Bu hal sədaqətə çağırır bizi!

Ya da vətən oğlu "Uzaq sahildə"
Xalqın namusuna elə and içir.
Ömrünün bahara yeton çağında
Orda sədaqətlə canından keçir.

Qulaq as, qulaq as, eşidirmisən
Almazın, həyatın gur nəğməsini?
Bu güclü mahnıda dinləyirəm mən
"Bahar suları"nın tərənəsini.

Bir həvəs, bir maraq səssiz-səmirsiz
Bəzən alışdırıb yaxır insanı.
Ürəyin gözüylə seyr edirik biz
Doğma səhnəmizdə hər tamaşanı...

USTADIN KİMDİR

Aşıq Ədalətə

Məclis böyük, təntənəli,
Aşıq sadə, saz bəzəksiz,
Zillənibdir gözlər ona.
Titrək-titrək qalxdı əli,
İlk guşəsi, xalı təmiz,
Tellər dindi yana-yana.

Sazlı-sözlü babaların,
Qılınc tutan nəsillərin
Ruhu gəzdi bu məclisi.
İgidliyin, düz ilqarın
Mənasından şirin-şirin
Halı etdi o saz bizi.
Bu məclisə gələn gördük
Qurbanini, Ələsgəri,
Gözlərindən gülən gördük
Yaşmaq tutan gözəlləri.

Bir dost kimi candan, qəlbdən
Saz sirrini bizə dedi,
Tənəyə də hədəf oldu.
Bəlkə elə bu səbəbdən
Əllər onu döyəclədi –
O gah çılğın bir dəf oldu,
Gah tar oldu, gah kamança;
Gah da neyin dodağını
Yada salıb hey ağladı...
Gah da atəş açа-açа
Bir qoşunun qabağını
Aynalıtək o, saxladı.

O əfsuna sən daldıqca
Düşünürsən, bu avazda
Yüz sənətin hikməti var.
Şövqə gəlib o çaldıqca
Deyirsən ki, bu tək sazda
Bir orkestr qüdrəti var!

Gah müdrik bir qoca kimi
Gedib dərin bir xəyala
Ümmanlara daldı-daldı...
Gah Abbası, gah Dilqəmi,
Koroğlunu qala-qala,
Gəzdi, gəzdi... çaldı, çaldı...

Başlayanda saz oynağa
Qönçələrdən o, elə bil
Əlvan xalı toxuyurdu.
Səs qalxdıqca dalğa-dalğa
Sanki dinən o saz deyil,
Aşıq Mirzə oxuyurdu.

Sehrlədi o saz bizi –
Dəyişildi məclis birdən,
Xanəndələr gəldi dilə.
Coşdu duyğular dənizi,
Baş açmadım heç bu sirdən,
Görməmişdim sazı belə.

Qulaq verdi, baxdı hamı
Bu çalğıya heyran-heyran. –
Saz şaqradı tuti təki.
Aydın idi hər kəlamı,
Danışırdı: "Dost-mehriban
Ya bir olar, ya da iki..."

Sonra səpdi "Lalələr"i
Məclis boyu ləçək-ləçək,
Al boyandı Gəncə düzü.
Bülbül olub nalələri
Yaydı bağa çiçək-çiçək,
Düzdü sapa o hər sözü;

"Yenə qonub şah budağa
Nə sızlarsan belə, bülbül?.."
Güllər ətir qoxuyurdu.
Əhsən, alqış yağa-yağa
Sanki burda o saz deyil,
Şövkət, Zeynəb oxuyurdu.

Saz söz qoyub Ədalətlə
Faş elədi neçə-neçə
Leyli-Məcnun fəryadını.

Danışdırdı məhəbbətlə,
Ləyaqətlə seçə-seçə
Əsrimizin Fərhadını!

Asta-asta, narın-narın
Aşıq sazı, saz aşığı
Coşdururdu, daşdırırdı;
Məharətli sənətkarın
Söhbət edən hər barmağı
Baxışları çaşdırırdı.

Endirəndə sazı hərdən
Mizrablı ol dincəlirdi.
Pərdələri gəzən əldən
Qəribənə səs gəlirdi...

Bərbəzəkli neçə sazın,
O çaldıqca, batdı səsi,
Sədəflərin hüsnü soldu.
Sadə saza – o avazın
Hər cəh-cəhi, hər guşəsi,
Hər xalı bir sədəf oldu!
Süzüb keçdi o səhnəni,
Dəsgahını vurdu sona
Alqışların şəlaləsi.
Görməsə də səni, məni
Mavi ekran verdi ona
Qucaq-qucaq el töhfəsi.

Saz sussa da ürəklərdə
Davam etdi bu tərənə.
Səs ucaldı pərdə-pərdə:
– Qayıt yenə, qayıt yenə!

Sazı ilə o sənətkar
Bu alqışı alqışladı

Yorulmadan, usanmadan.
Heyran qalıb soruşdular:
– Ustadının nədir adı?
Cavab verdi:
– Azərbaycan!

HƏSƏD

Bağımızda üç budaqlı
Peyvənd alma ağacı var.
Alma nədi, bir aləmdir
Hər budaqda yetişən bar:

Ətri başqa, dadı başqa,
Hər növün öz adı başqa.

Biri ağdır, biri sarı,
O birisi çəhrayıdır.
Şipşirindir, turşməzədir,
Təzə baldır – dost payıdır.

Bıçaq alıb kəssən əgər
Al yanaqlı bir almanı,
Deyərsən ki, elə indi
Axasıdır qızıl qanı.

Heç hansının çöhrəsində,
Zahirində yoxdu qüsur.
Heyf, ancaq birisinin
Batinini görən... qusur.

Qabığını soyan təki
Üzə çıxır hər gizli sirr –
Baxırsan ki, içindəcə
Əyri-üyrü bir qurd gəzir.

Bədənində o almanın
Min bir fəsad törətmədə –
Açıb iynə ucu boyda
Xırda, məxfi pəncərə də.

Ordan qonşu almaların
Düzümünə baxır, baxır:
"Bizdən deyil, gəlmədilər..." –
Mızıldanır paxıl-paxıl.

Həsəd qurdu içərini
Söküb tökür nifrətindən
(Yazıq alma başdan-başa
Saralıbdır xiffətindən).

Bayırdakı almalara
Nə toy tutub qazar quyu –
Neyləsin ki,
Yığılsa da, açılsa da,
Çatmır boyu...

Önündəki şah budağa
Hey yağdırır tənə daşı,
Özünüsə almaların
Sanır qədim vətəndaşı.

Həsəd rəmzi – qurd sığınıb
Saf almaya, "yaxın dosta",
Nəsillərdən nəsillərə
Keçib gedir asta-asta...

Bir adı Qala, bir adı da Pənahabad olan Şuşa, Laçın təkcə bu günümüz yox, tariximizdi, sərkərdələr, sənətkarlar yetirən əcdadımızın yadigarıdır, Pənah xanı, İbrahim xanı, Vaqifi, Natəvanı, Adıgözəl bəyi, Mehmandarovu, Xosrov bəyi, Sultan bəyi, Üzeyir bəyi, Seyidi, Xanı, Bülbülü yetirən diyardır. Şuşa bizim qartal qıylı, bülbül cəh-cəhli yuvamızdır. Buna görə də indi Şuşasız günlərimdə mən özümü yuvasız quş sayıram...

QAPINI BAĞLAYAN FƏLƏK

Ərşə qalxıb naləm mənim,
Alınıbdı Qalam mənim.
Əsir düşüb ciyərparam,
Şuşam mənim, balam mənim.

Şəhid bağrı dəlik-dəlik,
Şüşə qəlbim çilik-çilik.
Şənlik edir, şonquyubdu
Şah evimdə Şöklü Məlik.

Kəsilibdi Xaçın yolu,
Dağılıbdı Laçın yolu.
Məmməd Əmin durub gəlir,
İgidlərim, açın yolu.

Millətimin atasıdı,
Ruhu zəfər butasıdır.
Bir haray var, on səkkizin
Bu gün əksi-sədasıdı:

"Urus gəlir Abdallara
Etibar yoxdu bunlara.
Soruşun türklər hardadı,
Topları çəkin yallara".

Misri qılınc hanı, hanı
Sel-sel olsun gavur qanı.

Hayandadı bu günümün
Soltan bəyi, Pənah xanı.

Hayandadı, hayandadı
Bamsı Beyrək, Xan Bayandır.
Türk oğlu, çox qandırıbsan,
Ermənini yenə qandır!

Bura Nəbi oylağıdı,
Laçın, tərlan yığnağıdı.
Bir həmləsi, bir uçuşu
Quzğun cəmini dağıdır.

Taleyin öz yazısı var,
Qarlı qışın da yazı var.
Basmaq istər qurdu köpək,
Arxası – ağ ayısı var.

Ona da Bozqurd deyərlər,
Şəstini çətin oyələr,
Min il nəslini öyüblər,
Min il nəslini öyərlər.

28 may, 1992

ÇƏRKƏZİN CAVABI

Yanaşdı çar generalı
çərkəzlərin başçısına,
dedi, gəlin yaxşılıqla, xoşluq ilə
qəmənizi qoyun qına.

Sultan sizi həmişəlik töhfə verib,
bağışlayıb çoxdan bizə.
İndən belə hakim bizik, ağa bizik
bu sahilə, bu dənizə.

Qarlı dağ da, coşqun çay da, isti su da,
göy meşə də bizimkidir.
Arx altında, yol üstündə bitən ot da,
bənövşə də bizimkidir!

Çərkəz boğdu qəzəbini, hiddətini
güclə nəfəs ala-ala!
Gözlərini mənə ilə qıyıb dedi
zor paqonlu generala:
– Çərkəz oğlu
qolu bağlı
qul olmamış heç bir zaman
nə bir çara, nə sultana.
Bu səbəbdən xəncəri də girməyibdir,
ömrü boyu girməz qına!

Hər töhfəyə, hər bəxşişə tamah salıb
götürməyi bilmə asan,
ağacdakı o quşa bax,
bağışladım onu sənə;
Sənindir, tut, general,
görək necə tutacaqsan...

SİNƏSİ DAĞLI DAĞ

Mehribandır, şəfqətlidir,
Gileylidir, hiddətlidir,
Hüznlüdür Axun dağı.
Seyr edirəm zirvəsindən
Uzaq dağı, yaxın dağı.

Qarlı Qafqaz qaşqabaqlı,
Göy təpələr fikrə gedib.
Dara düşən dağ kəlləri
Öz-özünü həlak edib.

Qartalların ox lələyi
Sancılıbdır qayalara.
Özlərisə bilən yoxdur,
Bilən yoxdur... uçub hara.

Kol-kos örtən yamaclarda
Meşələşən bağlara bax:
Peyvənd armud, şirin gilas...
Aullardan verir soraq.

Qalalarda tarixlərin
Açılmamış qatı qalıb.
Tayfaların, nəsillərin
Burda ancaq adı qalıb.

Adı qalıb kənd-şəhərdə,
Adı qalıb oymaqlarda.
Adı qalıb çayda, göldə,
Adı qalıb bulaqlarda.

Dağ havası, dağ nəsimi,
Dağ çiçəyi, qar, bənövşə,
Gül şəhində gülən güneş,
Qara dəniz, yaşıl meşə...

Gəlib gördü bir hökmdar,
Ürəyinə yatdı yaman.
Bircə udum nəfəs dərcək
Dimağından uçdu duman.

Zənd elədi bir təpədən
Xoflu-xoflu hər tərəfə.
Düşündü ki, necə baxım
Rahat-rahat burda kefə?

Dağlıların əməlindən
Əskik olmur heç vaxt qəza.
Xam at kimi şahə qalxar
Dağ çəkməsəm mən Qafqaza.

Xəfifcə bir təbəssümlə
Sığal çəkib bığlarına,
Qələm çəkdi dağlıların
Taleyinə, rüzgarına.

İlim-ilim itdi ellər,
Adı qaldı.
Hörüklərdə igidlərin
Atı qaldı.

Körpələrin açılmamış
Dili qaldı.
Qoca ömrün hələ neçə
İli qaldı.

Halal işin, düz əməyin
Barı qaldı.
İnsanların torpaq adlı
Ən sevimli,
Ən müqəddəs
Varı qaldı.

Qaldı...
Sürdü başqaları
Bu yerlərin səfasını.
Talelərdən qisas alan
Bir gün aldı cəzasını.

Yenə də xoş üz göstərir
Gəlib gedən qonaqlara
Hər kənd-şəhər.
Lakin kimsə soruşmayır
Ev yiyəsi gedib hara,
Haçan gələr?!

"Ev yiyəsi! Ev yiyəsi!"
Cavab yoxdur bu nidaya.
Üz tuturam göy meşəyə,
Üz tuturam Aqurçaya.

Təngişdirir yol nəfəsi,
Asta-asta çağırıram:
"Ev yiyəsi! Ev yiyəsi!"
Boğuq-boğuq əks eləyir
Dərin dərə homin səsi:
"Ev yiyəsi! Ev yiyəsi!"

Dikəlirəm zirvələrə,
Bəlkə ordan çatdı səsim.
Bir məhrabın qarşısına
Yetişəndə batdı səsim.

Mehribandır, şəfqətlidir,
Gileylidir, hiddətlidir,
Yol gözləyən ana kimi
Həsrətlidir
Axun dağı!

Sinəsində tarixlərin
Uzaq dağı, yaxın dağı...

TÜKƏNMƏZ MÜRƏKKƏB

Yenə, yenə yer üstündə,
yer altında,
buludların, dalğaların
qanadında
neçə-neçə can dəftəri
hələ ağdır –
Öz xəttilə millət oğlu
onları da yazacaqdır.

Yazacaqdır – çünki onun
tükənməzdir coşan təbi,
yazacaqdır – çünki onun
tükənməzdir öz qanından
düzəltdiyi mürəkkəbi.

QARTAL GÖZÜ

İlahi, bu torpağım
Necə sirli möcüzə.
Adicə şəkliylə də
Yenə dərs verir bizə.

Durma vətən övladı,
Xəritəyə nəzər sal,
Düşün nəyi öyrədir
Gördüyün uca qartal.

Gör necə də ləngərlə
Süzür qoşa qanadlar!
Qartalındır, qartalın
Bu əzəmət, bu vüqar.

Kim deyər ki, var onun
Özgə quşa bənzəri?
Dimdiyində aparır
Elə bil ki, Xəzəri.

Bakı! Sən bu qartalın
Yanar, parlaq gözüsən.
Bədnəzərin gözünə
Batan oxun özüsən!

Gəlin, bir də seyr edək
Xəritədə Bakını.
Kim görmüş
Gözün belə
Şəffafını, pakını!

Milyon çıraqlı o göz
Zillənibdir uzağa.
Qartal cürət etməzdi
Onsuz qanad açmağa –

Milyon çıraqlı o göz
Şəfəqlədib yolunu.
Tufanlardan keçirmiş
Qanadını, qolunu.

Milyon çıraqlı o göz
Yerə, suya səpir nur,
Ulduzlara göz vurur.
O qocaman qartalı
Uca, nurlu göylərə,
Bir uğurlu səfərə
Uçurduqca uçurur...

MƏSLƏKİM YOLUNDA

Məsləkim yolunda gəlsəm üz-üzə
Məndən əfv ummasın doğma qardaşım.
Hər yerdə, həmişə haqq gəzə-gəzə
Ağ gün yollarında ağardı başım.

Təzə arzuluyam, qocaltmaz zaman
Yüzə yetişsəm də bu minval ilə.
Güclüyəm – millətim ümmandır, ümman
Artır, həmrəy olur o, ildən ilə.

Mən də o ümmanın bir qətrəsiyəm,
Bir gün buxarlanıb qalxsam göylərə,
Yenə damla olub düşəndə yerə
Bir əməl çiçəyi bitirəsiyəm,
Xalqıma töhfətək yetirəsiyəm.

Təbiətin qız vaxtıdır

GƏLMİŞƏM

Səndən ayrılanda, dağlar, cavandım,
İndi görüşünə qoca gəlmişəm.
Qayğılar üstümə düşdü – talandım,
Üzümə üz tutub borca gəlmişəm.

Diləyim çoxsa da, gəl əsirgəmə,
Nə arzu eləsəm, yoxumdur demə.
Qaytar sən bu dəmdən məni o dəmə,
Düşmüşəm yamanca suça, gəlmişəm.

Mehribandır obaların, ellərin,
Şəfalıdır çiçəklərin, güllərin,
Məlhəm olsun deyə sərin yellərin
Sinəmi mən açа-açа gəlmişəm.

Xatirəmin güllərini üzməyə,
Cığır örtən otlarını əzməyə,
Haraylayıb gəncliyimi gəzməyə,
Yollarını quca-quca gəlmişəm.

Zəri altı duran bəxtə-naxışa,
Möhkəmcə yaddaşa, möhkəmcə huşa,
Cağbacağ dişlərə – üyüdən daşa,
Yapdığım küt gedir, saca gəlmişəm.

Baxışda tüğyana gələn dənizə,
Qırışsız alına, gözlüksüz gözə,
Çəliksiz əllərə, əsməyən dizə,
Bükülməyən qola-qıça gəlmişəm.

Yanaqda közərən laləyə, gülə,
İlanı yuvadan çıxaran dilə,
Dayı dedirtməyən qapqara telə,
Hələ dən düşməyən saça gəlmişəm.

Damaqdan getməyən dada-ləzzətə,
Qızlar bəyəndiyi boya-qamətə,
İti, şux yerişə, taba-taqətə
Möhtac qalıb uça-uça gəlmişəm.

Tövşümək bilməyən odlu nəfəsə...
Durnanı havada saxlayan səsə,
Tükənməz nəşəyə, bitməz həvəsə,
Hünərə, qüdrətə, taca gəlmişəm.

Ömrün zinətini illər alıbdır,
Mahir ovçu kimi bir-bir çalıbdır.
Birco son verdiyin vüqar qalıbdır,
Hüzuruna başı uca gəlmişəm!

LAÇIN QAYASI

Qabarıq sinəli Laçın qayası,
Nə qorxunc, heybətli görünüşün var!
Əlçatmaz qoynunda kəklik yuvası,
Üstündə qıy vuran laçınlar uçar.

Arxan Alaqaya, Məndilin dağı,
Yanında Ağbaba dayanıb qoşa.
Buluddan çalmalı Murov yaylağı
Qarşında Kəpəzlə verib baş-başa.

Daşların altından "pıq-pıq" eyləyən
Bulağın timsaldır qaynar gözlərə.
Dərələr uzanır "gəl-gəl" söyləyən,
Ləpəsi sıçrayan dəli Tərtərə.

Yuyar daşlarını məkansız sular,
Öpər yanağını səhərin yeli.
Hər çiçək fəslində gələndə bahar
Axar göy sinənə var-dövlət seli.

Ferma çadırları qurulan zaman
Başlanar dağların toyu, büsatı.
Sürünü yaylıma çıxaran çoban
Şiş qaya üstündən çəkər bayatı.

İnsan nəfəsilə canlanar yenə,
Nə gözəl görünər camalın sənin.
Dost qəlblər dözərmi odlu hicrinə,
Ömür təzələyər vüsalın sənin.

Çəmənlər içində – yanında evin
İməkləyən körpə toplayar çiçək.
Səhərlər meşəyə gedən qız, gəlin
Qayıdar qabında moruq, çiyələk.

Yüz tüfəng tuşlansa süzən qartala,
Duyğusuz ovçunun qaşı çatılmaz.
Qocalar qəzəblə qışqırar: "Bala,
Laçına, qartala güllə atılmaz!.."

Qabarıq sinəli, Laçın qayası,
Nə qorxunc, uçurum görünüşün var!
Əlçatmaz qoynunda kəklik yuvası,
Üstündə qıy vuran laçınlar uçar.

Lalələ, nərgizli zümrüd sinəni
Palıd meşələri dövrəyə almış.
Çox yola salmısan gəlib keçəni,
Zamanın zərbindən başın ağarmış.

Palıd ağacından qopan səs, hənir...
Laçınlı, buludlu, qalalı dağlar...
Bu möhtəşəm lövhə bilsən nə deyir:
"Burda babaların ocaq yeri var..."